# Vətən fədaisi

***10 uşaq atası 58 yaşlı Müzəffər Əsədov Birinci Qarabağ savaşına könüllü getmişdi***

Tale Müzəfferi elə əvvəldən çətin, sərt sınaqlarla qarşılaşdırmışdı. 5 yaşında ikən atası İkinci Dünya müharibəsində həlak olmuşdu. 4 uşağı təkbaşına böyütmək anası Mədinə üçün heç də asan deyildi.
Evdəki maddi vəziyyətin ağırlığını dərk edən Müzəffər 12 yaşına qədər Gəncə və Quba şəhərlərindəki uşaq evlərində qalıb. Sonra doğma Zövlə kəndinə qayıdaraq yeddiillik məktəbi və Lənkəran Kənd Təsərrüfatı Texnikumunu bitirib. 1956-cı ildə ordu sıralarına xidmətə yollanıb. Tərxis olunduqdan sonra yerli təsərrüfatda 20 il sürücü işləyib. 1979-cu ildə sovxozun rəhbərliyi Müzəfferin işgüzarlığını, təşkilatçılıq bacarığını nəzərə alaraq, onu briqadir təyin edib.
Bəli, həyatın sərt imtahanlarına mərd-mərdanə, arxasız, köməksiz sinə gərən Müzəffər Əsədovun zəhmət, alın təri hesabına əli təzə-təzə çörəyə çatmış, xoş dövran keçirməyə başlamışdı. Ömür-gün yoldaşı ilə birlikdə 10 uşaq - 6 oğul, 4 qız tərbiyə edirdi.
Amma 1988-ci ildən bəri bədxah qonşularımızın torpaq iddialarından əl çəkməməsi, 1990-cı ildə "şanlı" sovet ordusunun Bakıda dinc əhaliyə divan tutması, sonradan isə Xocalı soyqırımı, Şuşanın, Kəlbəcərin, Laçının... işğalı Müzəfferin rahatlığını əlindən almış, ürəyində məkrli düşmənə qarşı sonsuz niftət hissi yaratmışdı. O, hər an, hər dəqiqə döyüşə atılmaq, namus-qan intiqamı almaq ehtirası ilə alışıb yanırdı.
1993-cü ilin bir payız günündə Müzəffər kişi evdəkilərin, qonum-qonşuların etirazına məhəl qoymayıb, rayon hərbi komissarlığına gələrək könüllü cəbhəyə göndərilməsini xahiş etdi. Hərbi komissarlıqda isə ona bildirdilər ki, bu gün-sabah 60 yaşın tamam olacaq, hələ üstəlik 10 uşaq atasısan, sənə getmək olmaz. Lakin Müzəfferin qərarı qəti idi. Nəhayət, o, daha 7 həmkəndlisi - Asif, Teymur, İbrahim, Orxan, Kamran, Qabil və Faiqlə birlikdə cəbhəyə yola düşdü. Vidalaşarkən evdəkilərə son sözü bu oldu:"Nə qədər ki, Vətən torpaqları düşmən tapdağı altındadır, mən rahat nəfəs ala bilmərəm. Gedirəm, Allah qoysa, qələbə ilə qayıdaram!.."
Taborda Müzəffər kişi yaşca hamıdan böyük idi. Əsgərlər hörmət əlaməti olaraq ona "Batya" adı vermişdilər. Onların dəstəsi bir neçə kəndi düşməndən azad etmişdi. Xüsusən Papravənd uğrunda gedən döyüşlərdə Müzəffər Əsədov əsl qəhrəmanlıq göstərmişdi. Ağdamın Güllücə kəndi isə Müzəffər kişinin düşmənə qarşı son döyüş meydanı olmuşdu.
Əsgər yoldaşı Fəxrəddin Ağayev həmin günləri belə xatırlayır:

mühasirə vəziyyətinə salmışdı. "Batya" dar məqamda həmişə dadımıza çatardı. Bu dəfə də o, döyüşçülərimizə ürək-dirək verir, zarafatları ilə onların könlünü almağa çalışırdı. Qəfildən beş-altı addımlığımızda güclü partlayış oldu. Düşmən qradının mərmisindən qopan qəlpə "Batya"nın sol böyründən dəyib ölümcül yaraladı. Uşaqlar cəld tərpənib onu döyüş mövqeyindən uzaqlaşdırdılar. Lakin həkimlərin cəhdinə baxmayaraq, Müzəffər kişinin həyatını xilas etmək mümkün olmadı. 3 gündən sonra - 1994-cü il yanvarın 13-də o, gözlərini əbədi yumdu.
Zövlə kənd tam orta məktəbinin müəllimi İslam Rzayevin dediklərindən:
- Müzəffər ömrünü kişi kimi yaşadı, heç kəsə boyun əymədi. Qeyrətini çəkdiyi Vətən yolunda qurban getdi. Onun həyat yolu gənc nəsil üçün əsl örnəkdir.
M.Əsədovun oğlu Ziyadın dediklərindən:
- Atamın şəhadətə qovuşmasından 30 ilə yaxın bir müddət keçir. Yaşasaydı, indi 88 yaşında olacaqdı. Amma bu gün onun ruhu şaddır, çünki Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin dövlət başçısı kimi səriştəsi, diplomat kimi məharəti, sərkərdə kimi qətiyyəti və xalq-dövlət-ordu birliyi sayəsində işğal altında olan torpaqlarımız düşməndən azad edilib, uzun müddətdən bəri qaçqın-köçkün həyatı yaşamış soydaşlarımız doğma ata-baba yurdlarına qovuşublar.
Qədirbilən xalqımız öz igid övladlarının adını həmişə uca tutduğu kimi, 58 yaşında Vətən fədaisi olmuş Müzəffər Əsədovun da xatirəsi heç vaxt xatirələrdən silinməyəcək.

Ağaddin BABAYEV